Azadlıq Radiosu

DÜNYA

# Özbəkistanda latın əlifbası dəyişdirilir

İyul 08, 2026




Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatası

Özbəkistanda latın qrafikalı əlifba dəyişdirilir. Parlamentin aşağı palatası müvafiq qanun layihəsini qəbul edərək baxılması üçün Senata göndərib.

Yeni düzəlişlərə əsasən, bəzi hərf birləşmələrindən imtina ediləcək. Hazırkı 26 hərf və üç hərf birləşməsinin əvəzinə əlifbada 28 hərf və bir apostrof (tutulma işarəsi) yer alacaq.

Əlifbada aşağıdakı dəyişikliklərin edilməsi nəzərdə tutulur:

G‘ → Ğ

O‘ → Ö

**Sh** → **Ş**

**Ch** → **Ç**

**ng** hərf birləşməsi isə əlifbadan tamamilə çıxarılacaq.

Bu dəyişikliklər Senat tərəfindən bəyənildikdən və Özbəkistan prezidenti tərəfindən imzalandıqdan sonra rəsmən qüvvəyə minəcək.

Yenilənmiş əlifbaya keçid mərhələli şəkildə həyata keçiriləcək. Qanun qüvvəyə minənədək rəsmiləşdirilmiş sənədlər, milli valyuta, qiymətli kağızlar, həmçinin lövhələr, göstəricilər və dövlət qurumlarının rəmzləri müəyyən olunmuş müddətədək qüvvədə qalacaq.

Parlamentin məlumatında bildirilir ki, bu yanaşma sənədlərin, blankların və lövhələrin eyni anda dəyişdirilməsi zərurətini aradan qaldırır. Beləliklə, büdcə vəsaitlərinin əsassız xərclənməsinin qarşısı alınacaq və dövlət əlavə maliyyə yükündən qorunacaq.

Qanun layihəsi geniş ictimai müzakirə keçirilmədən qəbul edilib. Qanunvericilik Palatasının rəsmi açıqlamasında detallar gizli saxlandığı üçün əlifbaya məhz hansı dəyişikliklərin ediləcəyi bir müddət qeyri-müəyyən qalıb.

## Buna da bax:


Türkiyə niyə Orta Asiyaya 'Türküstan' deyir? - Dərsliklərdə adlar dəyişdi

Türk dili ilk dəfə latın hərfləri ilə nə vaxt yazılıb?

Türk dövlətləri ortaq əlifbanı razılaşdırır. Qırğızıstan kiril əlifbasından məmnundur


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur